# Milli-mədəni dəyərlərimiz

## Onların qorunmasına dövlət qayğısı güclənir

● Teymur BÜNYADOV,
*akademik*



**Avropa ilə Asiyanın ayrıcında qərar tutan Azərbaycan xalqı dünyanın ən qədim və mədəni xalqlarından biri kimi tanınır, sayılır, seçilir. Ölkəmizdə insanın yaranmasının, təşəkkül tapmasının tarixi iki milyon ili ötüb keçir. Vətənimizin son dərəcə əlverişli təbii-coğrafi və iqtisadi-strateji şəraiti buranın ən qədim sivilizasiya ocaqlarından biri olmasına zəmin yaratmış, sonrakı tarixi inkişafına güclü təsir göstərmişdir.**

Bu baxımdan ümummilli liderimiz Heydər Əliyevin bir müdrik kəlamını xatırlatmaq istərdim: "Azərbaycan insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir. Burada həyat çox erkən yaranmışdır və Azıx mağarasında tapılmış Azıxantrop Azərbaycanın ən qədim ibtidai insan məskənlərindən biri olmasını sübut edir. Qobustandakı və Gəmiqayadakı qayaüstü təsvirlər, kurqan tapıntıları sübut edir ki, hətta miladdan əvvəlki minilliklərdə də Azərbaycanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur".

Azərbaycan qədimlərdən məşəllənib, sinəsindən od parlayıb, atəş saçıb. Ulularımız bu işığa, bu oda pənah gətiriblər, bu inanca sitayiş ediblər. Vətənimiz adını yanar odlardan alıb, Odlar ölkəsi adlanıb. İnsanlarımız bu müqəddəs adla fəxr edib, qürur duyublar. Adlarını uca tutublar. Azərbaycan abidələrin zənginliyi baxımından hər kəsdə dərin heyrət doğurur. Vaxtı ilə Azərbaycanda olan akademik İ.İ.Meşşanov Azərbaycanı yeraltı muzey ad-



landırmaqda nə qədər haqlı imiş. Həqiqətən, ərazimizin hər qarışında zaman qərar tutur, tarix yaşayır. Azərbaycan öz maddi və mənəvi zənginliyi baxımından həm də canlı, açıq səma altında etnoqrafik muzeydir, mükəmməl maddi-mədəniyyət ocağıdır.

Son illərdə respublikamızda ulu öndərin siyasətinin uğurla davam etdirilməsi nəticəsində iqtisadiyyat, elm, təhsil və mədəniyyət sahələrində görülən cahanşümul nailiyyətlər fərəh doğurur, hamıda qürur hissinə səbəb olur. Kəndlərimiz, şəhərlərimiz inkişaf edir, yeni görkəm alır, gözəlliklər məkanına çevrilir.

Hər yerdə quruculuq işləri, qurub-yaratmaq əzmi meydan alır. Yeni-yeni yollar salınır, ürəkaçan mənzərələr daha da gözəlləşir, qənirsizləşir. Mənəvi dünyamıza çıraq tutan seyrangahlar, mədrəsələr, məscidlər, ziyarətgahlar bərpa edilir, yenidən əsaslı şəkildə inşa edilir. Çoxsaylı yaraşıqlı məktəblər, mədəniyyət evləri, muzeylər açılır, xalqın istifadəsinə verilir, mənəvi zənginliyə çevrilir. Hamısı kök üstə köklənir, əsasa söykənir, müasirləşir, yeniləşir...

Bir müddət əvvəl Bakının Xəzərsahili seyrangahında Muğam evinin və Azərbaycan Dövlət Xalçaçılıq və Tətbiqi Sənət Muzeyinin açılması haqqında imzalanan sərəncamlar xalqımızın mənəvi mədəniyyətinin, musiqisinin, bədii sənətkarlığının mühafizəsi və gələcək nəsillərə çatdırılması istiqamətində müdrik addımlardır. Bunların ardınca Azərbaycan Etnoqrafiya Muzeyinin yaradılması ilə bağlı 11 iyul 2008-ci il tarixli sərəncam da qədirbilən xalqımız, elm və mədəniyyət təəssübkeşləri tərəfindən böyük sevinclə qarşılanmışdır.

Sərəncamdan bu sətirləri xatırlatmaq istərdik: "Azərbaycan etnoqrafik baxımdan rəngarəngliyi ilə səciyyələnən qədim bir diyardır. Ölkəmizdə indiyədək qorunub saxlanaraq yaşadılan el sənəti sahələri, maddi və mənəvi mədəniyyət nümunələri tarixi inkişaf prosesinin ayrı-ayrı mərhələlərini aydın əks etdirir". Bu yeni yaranacaq muzeyin məqsəd və qayəsi çox aydın müəyyən edilmişdir: "Milli mədəniyyətin gənc nəslin yüksək vətənpərvərlik, adət -ənənələrə bağlılıq və tarixi-mədəni dəyərlərə ehtiram ruhunda tərbiyə olunmasında müstəsna əhəmiyyətini nəzərə alaraq, Azərbaycan xalqının zəngin etnoqrafiyasının layiqincə təbliğ edilməsi məqsədilə" yaranması lazım bilinmişdir.

Bu, çox böyük tarixi əhəmiyyətli sərəncamdan irəli gələn məsul vəzifələrin yüksək səviyyədə həyata keçirilməsi Azərbaycan Milli Elmlər Akademiyasının, Mədəniyyət və Turizm Nazirliyinin üzərinə düşür. Bu vəzifələrin layiqincə həllində biri daha çox elmi-nəzəri, digəri isə daha çox əməli cəhətdən aparıcı rol oynamalı, həm də bütün məsələlərin həllində birlikdə hərəkət etməlidirlər. Məhz belə birlik, müştərəklik problemlərin daha dolğun, məzmunlu şəkildə həllinə öz töhfəsini verə bilər. Biz, elm adamları, xüsusən xalqşünas alimlər yaradılacaq Azərbaycan Etnoqrafiya Muzeyinin quruluşu, tərtibatı, eksponatların yerləşdirilməsi və s. bu kimi məsələlər haqqında öz fikir və mülahizələrini bildirməklə bu möhtəşəm işə hər cür yardım etməliyik. Bununla bağlı etnoqrafiya elmi ilə 50 ildən çox məşğul olan bir mütəxəssis kimi öz düşüncələrimi bildirmək istəyirəm.



Bizə belə gəlir ki, Azərbaycan Etnoqrafiya Muzeyi aşağıdakı qayda və quruluşda yaradılsa daha məqsədəuyğun, daha elmi ola bilər. İlk öncə etnoqrafiya elminin mühüm tərkib hissəsi olan xalq təsərrüfatı sahələri əks olunmalıdır. Muzeydə xalqımızın əsrlər boyu yaratdığı əkinçilik mədəniyyəti sahələri əyani şəkildə öz əksini tapmalıdır. Torpağın şumlanmasında işlədilən daş toxalar, qoşqu heyvanlarının qüvvəsi ilə hərəkətə gətirilən müxtəlif quruluşlu xış, qara kotan və dəmir kotanın nümunələri, toxumun səpilməsində işlədilən ağac və çubuq malalar, biçin alətləri, daşdan quraşdırılan qədim oraqlar, dəmir oraqlar, barmaqcıqlar, dəryazlar nəzərə alınmalıdır. Taxılın döyülməsində geniş istifadə edilmiş daş və ağac vəllər, carcarlar, şana, kürək, yaba, şadara, taxılın saxlanmasında istifadə olunmuş irihəcmli saxsı küplər, çuval, taxta ambarlar, taxıl döyülməsində işlədilmiş süzgəclər, su və yel dəyirmanları nümayiş etdirilməlidir.

Əkinçilik mədəniyyətinin əsas sahələrindən biri də bağçılıq, bostançılıq, üzümçülük, ipəkçilik, çəltikçilik, pambıqçılıq olmuşdur. Bu sahələrin hər birinin yerinə yetirilməsində işlədilən əmək alətləri də muzeydə öz yerini almalıdır. Eyni münasibət maldarlıq mədəniyyətinə aid olmalıdır. Südün sağılması, süd məhsullarının hazırlanmasında işlənən qablar, qoç heykəllər, Qarabağ, Qazax atları, at ləvazimatları, çərmıx, nalbəndlik alətləri və digər bu kimi nümunələr muzeyi daha məzmunlu edə bilər.

Azərbaycanın əlverişli iqlim şəraiti, zəngin faunası və florası, münasib yer quruluşu xalqımızın maddi mədəniyyətinin təşəkkül və inkişafı, çoxçeşidli və rəngarəngliyi üçün əsaslı zəmin yaratmışdır. Muzeyin maddi mədəniyyət bölməsində ilkin yaşayış yerlərindən müasir evlərə kimi bütün nümunələri: ibtidai insan sığınacaqları - mağaralar, alaçıqlar, qara damlar, imarətlər öz əksini tapmalıdır. Xalqımızın zəngin və çalarlı geyim tərzini əks etdirən xarakterik paltar, papaq, ayaqqabı növləri eksponatlar arasında mühüm yer tutmalıdır.

Müxtəlif növ bəzəklərlə yanaşı, yeməklər və içkilərin hazırlanması və istifadəsində işlədilən qablar, xalq nəqliyyat vasitələrindən olan sürütmə, qara araba, dörd təkərli araba, fayton və furqon nümunələri muzeyin daha da baxımlı olmasına səbəb olar.

Azərbaycan qədimdən yüksək bacarıqlı sənətkarlar ölkəsidir. Ölkəmizdə tarixən 50-dən çox sənət növü mövcud olmuşdur. Dulusçuluq, daşişləmə, ağacyonma, şəbəkəçilik, toxuculuq, keçəçilik, xalçaçılıq, misgərlik, zərgərlik və başqa sənət növlərini əks etdirən pavilyonlar muzeyin yaraşığına çevrilə bilər. Azərbaycanın mənəvi mədəniyyətinin zənginliyi bütün Şərqdə şöhrət tapmışdır. Muzeydə nəfəsli, simli və zərb musiqi alətləri, xanəndəlik və aşıq sənətinin nümunələri, rəqs, əyləncə və oyunlarla bağlı mətləblər də öz layiqli yerini tapmalıdır.

Azərbaycan Etnoqrafiya Muzeyinin nəzəri əsasını, elmi dürüstlüyünü dahilik zirvəsinə ucaldan ulu öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyası təşkil etməlidir. Onun təbirincə desək: 'Müstəqil Azərbaycan dövlətinin əsas ideologiyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir". Bu ideologiya xalqımızı birliyə, bütünlüyə səsləyir. Heç şübhəsiz, bu ideologiya muzeyin təşkili və fəaliyyət göstərməsində mayak rolunu oynamalıdır.

**Bu həyati, nəcib və beynəlxalq məzmun kəsb edən problemin yüksək səviyyədə yerinə yetirilməsində Heydər Əliyev Fondunun və Azərbaycan mədəniyyətinin dostları Fondunun prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın nəzər-diqqəti, xeyir-duası, havadarlığı, köməyi şəksiz böyük rol oynayacaqdır. Xatırladaq ki, Mehriban xanımın təhsilimizin, elmimizin, mədəniyyətimizin inkişafına göstərdiyi böyük qayğı, hamilik hünəri hamıya bəllidir və xalqımız tərəfindən minnətdarlıqla alqışlanır. Muğam dünyamızın, ulu xalq sənətimizin Parisdə UNESKO xətti ilə yüksək səviyyədə təmsil olunmasında və böyük uğur qazanmasında Mehriban xanımın rolu və əməyi nə unudular, nə də yaddan çıxar. Ona görə də ulularımızın "Uman yerdən küsərlər" kəlamını xatırlatmaq yerinə düşərdi. Mehriban xanım Əliyeva bəyan etmişdir: "Gənc, müstəqil Azərbaycan qarşısında günümüzədək gəlib çatmış zəngin irsi bərpa edib qorumaq kimi məsul və şərəfli vəzifə dayanır". Bu mülahizə Azərbaycanın Etnoqrafiya Muzeyinin qayəsi, məqsədi və məramı ilə necə də həmahəng səslənir.**

**Azərbaycan xalqının mənəvi dəyərləri, çoxəsr-**



M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası



lik tarixi, etnoqrafiyası, adət-ənənələri xalqımızın hər bir nümayəndəsinə aiddir. Ona görə də muzeydə əksini tapacaq hər hansı bir sənət nümunəsi hər bir azərbaycanlıya və bütünlükdə hamıya məxsusdur. Muzeyin eksponatlarını milli azlıqlara, etnik qruplara və ya bölgələrə görə ayırmaq elmi, nəzəri və əməli cəhətdən çox zərərli və qəbuledilməzdir. Həm də belə yanaşma muzeyin məna və məzmununa, qayə və məqsədinə qətiyyən uyğun gəlməz. Tamlıq, bütövlük pozular, ayrı-seçkilik özünü göstərər. Lakin maddi mədəniyyət nümunələrinin nümayişində ümumilik, eynilik, oxşarlıqla yanaşı fərqli cəhətlər də hökmən nəzərə alınmalıdır.

Azərbaycanın açıq səma altında yaradılacaq bu əzəmətli muzeyin ərazi məsələsi də ciddi problemdir. Burada götür-qoy etmək, yüz ölçüb bir biçmək lazım gəlir.

Şübhəsiz, təbii-coğrafi şəraitin münasibliyi nəzərə alınmalı, əsas götürülməlidir. Bizim düşüncəmizə görə muzey nə Bakıdan çox uzaq, nə də şəhərin daxilində qərar tuta bilər. Həm də geniş, gözəgəlimli, baxımlı, diqqətçəkən, marağa səbəb olan ərazi seçilməlidir. Bu baxımdan Bakıdan Sumqayıta sarı uzanan magistral yolun səmtini yada salmaq istərdik. Burada Ceyranbatan gölünün ürəkaçan mənzərəsi, onun sahili boyunca yaşıl meşə zolağı, yamaclar, düzəngahlar bir-birini tamamlayır, ümumi və bitkin mənzərə yaradır. Belə bir ərazi muzeyin məna və məramına cavab verir. Lakin bu fikir olsa-olsa mülahizə, yada salmaq məqsədi daşıyır.

Xalqın çoxəsrlik mübarizəli tarixi taleyini, mədəniyyətinin parlaq nümunələrini nümayiş etdirməli olan bu müqəddəs ocağın yaradılması ümumxalq işinə çevrilməlidir. Bu işə hamılıqla, elliklə qoşulmalıyıq. El bir olmalı, dil bir olmalı, eyni məqsəddən çıxış etməliyik. Evimizdə, eşiyimizdə, sandıqda, taxçada, boxçada bu amala xidmət edən lazımlı nə varsa çıxarıb ortaya qoymalıyıq. Hər kəs öz imkanı, bacarığı daxilində, muzeyin eksponatlarının zənginləşdirilməsinə çalışmalıdır.

Bölgələrdə çalışan çoxsaylı ziyalılarımız, həvəskarlarımız təxirəsalınmadan bu muzeyin əhəmiyyətini, vacibliyini xalqa çatdırmalı, öz töhfəsini verməlidir. Geniş təbliğat işinə başlanılmalıdır. Onlar xalqla, xüsusən də yaşlı nəslin nümayəndələri ilə sorğu-suallar aparmalı, yaşadıqları bölgənin ərazisində olan və ya hələ də elmə məlum olmayan maddi-mədəniyyət abidələrinin aşkar edilməsi və qeydə götürülməsini təşkil etməlidirlər.

Əldə etdikləri hər nə varsa bu işdə məsul olan yuxarı təşkilatlara xəbər verməli, çatdırmalıdırlar.

Bütün idarələr, təşkilatlar bu işə böyük həvəs və məsuliyyətlə qoşulmalıdır. Gərək, "xalqım, millətim" deyən, onunla fəxr edən böyük xeyriyyəçilər, çoxsaylı iş adamları, biznesmenlər və s. bu işə rəvac versinlər, əllərindən gələn köməklikləri əsirgəməsinlər. "Dama-dama göl olar" - deyiblər müdriklərimiz.

Azərbaycan Etnoqrafiya Muzeyinin yaranması və təşkil edilməsində əksini tapacaq əşyayi-dəlillərin mühüm bir qismini ilk növbədə respublikada fəaliyyət göstərən yetmişə yaxın rayon muzeylərinin fondlarından əldə etmək mümkündür. Həmin muzeylərdəki zəngin materialların müəyyən hissəsini bu məqsədə yönəltmək olar. Lakin "ehtiyat igidin yaraşığıdır" - demişlər. Ona görə də bu məsələyə çox ehtiyatla, düşünülmüş şəkildə yanaşmaq tələb olunur. Ehtiyatsızlıq, bilməməzlik, başdansovduluq, laqeydlik çox şeylərin itirilməsi ilə nəticələnə bilər.

Bizə belə gəlir ki, muzeydə tarixilik prinsipi əsas götürülməlidir. Xronoloji ardıcıllıq mütləq gözlənilməli, nəzərə alınmalıdır. Muzeydə əksini tapacaq hər bir eksponatda ardıcıllıq, sadədən mürəkkəbliyə, primitivlikdən mükəmməlliyə, təkamülə, inkişafa, tərəqqiyə baxış dinamikası aydın sezilməlidir. Muzeyə gələnlər təkcə onun materiallarının zənginliyinə, rəngarəngliyinə deyil, həm də tarixi inkişaf yoluna maraq göstərəcəklər. Bu elmi muzeyin dərin məzmunluğunu təsdiqləyəcəkdir. Hər kəsdə xalqımızın mənəvi dünyasının zənginliyi heyrət doğuracaqdır.

"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncama uyğun olaraq nəşr edilən fundamental əsərlərdən biri də "Azərbaycan etnoqrafiyası"dır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əziz xatirəsinə ithaf olunan AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu tarixi etnoqrafiya şöbəsi kollektivinin hazırladığı üçcildlik "Azərbaycan etnoqrafiyası" yüksək elmiliyi, mənəvi zənginliyi, dərin məzmunu ilə seçilir, səciyyələnir.

Xalqımızın çoxəsrlik tarixində belə bir əsər ilk dəfədir ki, qələmə alınmışdır. Heç şübhəsiz, bu fundamental cildlər Azərbaycanın açıq səma altında yaradılacaq Etnoqrafiya Muzeyinin təşkilində, gündəlik fəaliyyətində və təbliğində öz bələdçi, istiqamətverici rolunu oynayacaqdır. Əslinə qalsa, bu əsər muzeyin stolüstü kitabı olacaqdır.

Azərbaycanın etnoqraf alimləri öz elmi-tədqiqat işlərilə əlaqədar respublikanın müxtəlif bölgələrinə tez-tez səfər edir, zəngin çöl etnoqrafik materiallar toplayırlar. Həmişə xalqla bir olan bu xalqşünas mütəxəssislər açıq səma altında yaradılacaq muzeylə bağlı çox işlər görə bilərlər. Onlar muzeyə lazım olan materialları siyahıya ala bilər və toplanmasını təşkil edər, əhali arasında bu münasibətlə çıxışlar edər, xalqı agah edər, məqsəd və məramı onlara çatdırarlar. Məhz etnoqraflar bu işin yaradıcılarından olmalıdırlar. Bu işdə onlar hamıdan çox səriştəlidirlər. Ona görə də bizlər vəzifəmizi bildiyimiz kimi, məsuliyyətimizi də unutmamalıyıq.

Azərbaycan Etnoqrafiya Muzeyinin yaradılmasında etnoqrafiya elmi kimi, arxeologiya elminin nailiyyətlərinin də müstəsna rolu vardır. Arxeologiya iki milyon ildən üzübəri gələn tariximizi çox zəngin abidələr vasitəsilə öyrənir. Etnoqrafiya isə tariximizi xalqdan aldıqları ilə bərpa edir.

Tarix elminin bu qoşa qanadının biri arxeologiya, digəri etnoqrafiyadır. Əgər belə demək mümkünsə biri ixtiraçı, digəri bərpaçı rolunu oynayır.

Arxeoloqlar bundan sonra bölgələrdə arxeoloji qazıntılar apararkən muzeyə lazım olan arxeologiya və etnoqrafik eksponatların toplanmasında öz köməkliklərini göstərə bilərlər. İşlədikləri bölgələrdə yerli əhali ilə görüşlər təşkil edib, muzeyin məqsəd və məramını onlara çatdırar, izah edərlər. Bu da öz müsbət rolunu oynayar.

Aydın həqiqətdir ki, açıq səma altında yaradılacaq muzeydə xalq yaradıcılığı nümunələri özünün geniş əksini tapacaqdır. Bu mühüm məsələdə xalq yaradıcılığı ilə məşğul olan folklorşünas alimlər də çox böyük işlər görə bilərlər və görməlidirlər. Bu səfərlər zamanı əldə edilən nadir incilər müzeyin bəzəyinə çevrilər. Bu işdə gecikmə, biganəlik halları yolverilməzdir. Heç şübhəsiz, memarlıq tarixi ilə məşğul olan alimlərimiz, sənətşünaslarımız da muzeyin təşkilinə öz töhfələrini verməlidirlər.

Bu mənəvi ocağın elmi cəhətdən düzgün və yüksək səviyyədə təşkilində bir sıra xarici ölkələrlə eyni məqsədlə fəaliyyətdə olan muzeylərin iş təcrübəsi ilə yaxından tanış olmaq, faydalanmaq yaxşı nəticə verə bilər. Bu münasibətlə alimlərin, muzey üzrə ixtisasçıların həmin muzeylərə ezam edilməsi nəzərə alınmalıdır. Heç şübhəsiz, belə münasibət muzeyin elmiliyinə, məzmun və silqətinə öz müsbət təsirini göstərəcəkdir.

Xatırladaq ki, ölkəmizdə son illərdə turizm sahəsində əsaslı dönüş geniş vüsət almışdır. Vətənimizə turistlərin axını başlamışdır. Onlar respublikamızın valehedici gözəlliklərindən ilham alır, heyrətlənirlər. Heç şübhəsiz, ölkəmizə qonaq gələnlər Etnoqrafiya Muzeyi ilə də maraqlanacaq, ona baş çəkəcək, xalqımızın mənəvi dünyasına valeh olacaqlar. Gördüklərini, eşitdiklərini aləmə yayacaqlar. Ona görə də yaradılacaq muzey beynəlxalq əhəmiyyət kəsb edir.

***Azərbaycan Etnoqrafiya Muzeyi əvəzsiz milli sərvətimiz, mənəvi xəzinəmiz, qürur mənbəyimizdir. Bu mənəvi ocaq xalqımızın güvənc yeri, ibrətamizliklərlə dolu gör-götür dünyası, təlim-tərbiyə məktəbinə çevriləcəkdir. Muzey gənclərimizin şanlı tariximizə, çalarlı mədəniyyətimizə, dünənimizə dərin ehtiram, adət-ənənələrimizə qayğı, yaşatmaq əzmi aşılayacaqdır.***